# ORXAN FİKRƏTOĞLU: "ARZULARIM HEÇ VAXT KİMİNSƏ ARZULARIYLA TOQQUŞMAYIB"

***Tanınmış yazıçı, ssenarist, rejissor, jurnalist, Əməkdar incəsənət xadimi Orxan Fikrətoğlunun martın 21-də 55 yaşı tamam olur. Ad günü ərəfəsində yubilyarla həyat, ədəbiyyat, keçmiş və bu günlə bağlı həmsöhbət olduq.***



**- Orxan bəy, sizdən soruşsam, öncə özünüzü yazıçı kimi təqdim edəcəksiniz, yəqin ki. Ancaq əksəriyyət sizi jurnalist, aparıcı kimi qəbul edib. Bu, sizə necə təsir edir?**

- Məncə, bu, belə deyil. Məni tanıyan və məni tanıdığım 200-300 oxucum var ki, biz onlarla ədəbiyyat söhbətləri edirik. Təəssüf ki, onların çoxu Türkiyə, Rusiya və Avropada yaşayır. Mənə onların rəyi kifayət edir ki, özümü necə bilirəmsə, elə də hiss edim. Əlbəttə, bugünkü kütlə Orxan Fikrətoğlunu "Zorxana"dan tanıyır. Əslində, mən elə "Zorxana"nı o kütlə üçün yaratmışdım, onları maarifləndirməyə, kütlədən orta təbəqə formalaşdırmağa çalışırdım. Təəssüf ki, alınmadı. Bu gün həmin kütlə başqa aparıcılara onları "qıdıqlamaq", ağlatmaq haqqında "sifarişlər verir". Buna görə də siz televiziyanın, ədəbiyyatın, kinonun nə vəziyyətdə olduğunu görürsüz. Amma təbii ki, mən özümü yazıçı hiss edirəm və məni yazıçı hiss edənlər də var. Sadəcə, siz o insanları televiziyalarda, getdiyiniz ədəbi məclislərdə görmürsünüz. Siz heç məni də görmürsünüz o toplantılarda, həmin mühitdə. Çünki xoşlamıram, o mühiti qəbul edə bilmirəm. Bəli, Yazıçılar Birliyi mənə doğma yerdir. Orda atam işləyib. Anar, Fikrət Qoca, İlqar Fəhmi və başqaları hörmət etdiyim insanlardı. Amma o toplantılarda iştirak etmirəm. Ümumən, Orxan Fikrətoğlu bayaq haqqında danışdığımız kütlə üçün "Zorxana"nın aparıcısı, intellektuallar üçün isə yazıçıdır.

**- Yubiley yaşınızı qeyd edirsiniz. Həm öz, həm də qəzetimizin kollektivi adından sizi təbrik edirəm. Necə keçdi bu 55 il?**

- 55 yaş yaxşı keçdi. İtkilərim olmasaydı, lap yaxşı keçərdi. Mən heç vaxt xorda oxumamışam, həmişə solo oxumuşam. Rejissor kimi ürəyim istəyən iki film çəkmişəm. Biri Beynəlxalq Yalta Kinofestivalının qalibi olub. "Xalça nəğməsi" adlı o filmi rus dilində çəkmişdim. İkinci "Ərazi" filmimdir ki, o, bildiyim qədəriylə, Amerika Kino Akademiyasında göstərilmiş və tədrisə salınmış yeganə filmdir.

"Yuğ" teatrında əsərlərim səhnələşdirilib. Başqa teatrlar poetikama uyğun deyil deyə, onlara pyes verməmişəm. Bircə rəhmətlik Vaqif İbrahimoğlu və "Yuğ" teatrı ilə tandem vardı. Çünki onların eksperimentliyi, dünyaya başqa cür baxmaq bacarıqları mənə maraqlı idi. Kinematoqrafiyada xeyli ssenarilərim çəkilib. Tək Azərbaycanda deyil, Özbəkistanda, Türkiyədə və sair. Türkiyədə hazırda iki filmim çəkilir. Sonuncu Qarabağ savaşıyla bağlı "Oğul" filmim bu günlərdə təsdiqlənib, Türkiyənin "Uğur" film studiyasında çəkilir.

Düşünürəm ki, 55 ildə Azərbaycanda artıq Orxan Fikrətoğlu adı var. Atamın adı həmişə üstümdədir. Ən azı, simasını, mövqeyini, tutduğu yolu dəyişməyən, heç bir partiyaya girib-çıxmayan və belə də yaşamağın mümkünlüyünü kimlərəsə sübut edən adam var. Mənə görə 55 il çox yaxşı keçdi.

**- "Vücudnamələr"lə bağlı məqalənizdə deyirsiniz ki, əsl qələm adamı taleyini idarə edə biləndir. Bu mənada özünüzü əsl qələm adamı hesab edirsinizmi? Sizcə, ədəbiyyatımızdakı imzalardan kimlər taleyini idarə edə bilib?**

- Azərbaycanda taleyini idarə edə bilən şair Hüseyn Cavidi tanıyıram. Düşünürəm ki, Mikayıl Müşfiq də daxil olmaqla, 1937-ci il repressiya qurbanlarının heç biri, Hüseyn Cavid kimi öz taleyinə sahib deyildi. Onların hamısı sözün bütün mənalarında qurban idi. Hüseyn Cavid isə Sovet rejiminin şəhidi idi. Çünki o, Turançı, ideya adamı idi və həqiqətən də o rejimə qarşı vuruşurdu. Bu, onun taleyi

idi. O, özü öz bioqrafiyasını, vücudnaməsini yazan və idarə edən adam idi. O dövrdə çoxu öz əqidələrini dəyişmişdilər. Hüseyn Cavid isə taleyinin sahibi idi. Bugünki ədəbiyyatımızda isə elə bir imza görmürəm.

Bu və ya digər formada mən özümü taleyimin sahibi hesab edirəm. Çünki vicdanımın əleyhinə olan bir cümlə də yazmamışam, bir addım da atmamışam. Düşünürəm ki, daxilimdə redaktor var, atamın adı da üstümdədir. Bütün bunları başa düşürəm. Bununla belə, yaradıcılığımda ədəbiyyata xəyanət edən bir söz tapsanız, mənə deyərsiniz. Söhbət əsl yaradıcılığımdan gedir. O ki qaldı, maaş aldığım jurnalistika sahəsinə, birmənalı olaraq, orda da hər halda "Zorxana" var və "Zorxana" Azərbaycan televiziya tarixində qalacaq bir səhifədir. "Zorxana"da deyilən sözlər Azərbaycan telejurnalistikasının yaranıb və sona çatdığı dönəmdə tarixə düşmüş reallıqlardır. Çünki mən Azərbaycan telejurnalistikasının, eləcə də, jurnalistikanın yaranıb, sonra öldüyünü görmüş adamam. Ondan sonra hazırda nələr baş verirsə, məncə, bu, postjurnalistikadır.

**- Sizə "yazmağı" "kim" öyrətdi: atanız (ümumən ailəniz), Qorki adına Moskva Ədəbiyyat İnstitutu, yoxsa həyat?**

- Heç kim heç kimə yazmağı öyrədə bilməz. Heç kim heç kimə yaşamağı da öyrədə bilməz. Çünki heç kim düzgün yaşamağın nə olduğunu və düzgün yazının necə yazıldığını bilmir. Yazı İlahi vəhydir. Gerçək ədəbiyyat, poeziya Allahla seçilmiş insan arasında əlaqə yarandıqda yaranır. Konstruksiya ilə, beyinlə yazılan yazılar başqadır. Amma belə hesab edirəm ki, ciddi yazıçı fəhmlə, Allah bağlılığı ilə peşəkar ədəbiyyat qanunlarını bilən, həmin təbi düzgün məcraya yönəltməyi bilən yazıçıdır. Mən eksperimentləri xoşlayan yazıçıyam və düşünürəm ki, bütün yaradıcılığım eksperimentlərdir. Fikrimcə, özüm-özümə yazmağı öyrədirəm.

**- Bir dəfə atanızın və dayınızın birgə şəklini paylaşıb, "birindən boyun və qaşlarını, digərindən ağlını və fəhmini götürmüşəm" yazmışdınız. Bəs ədəbi-bədii fəaliyyətinizdə, yaradıcılığınızda onlardan nələri götürmüsünüz?**

- Məncə, bunları bir-birindən ayırmaq olmaz. Anam bakılı, içərişəhərlidir, atam şamaxılı. Bildiyiniz kimi, Bakı əvvəl Şirvanşahın bir kəndi idi, bu gün paytaxt olub. Artıq Bakı elə bir meqapolisdir ki, bütün bölgələr burdadır. Sanki bunun nəticəsində burda süni, hirsli-kinli bir reallıq yaranıb. Bakı özəlliyini çox itirdi. O cümlədən, Şamaxı da özəlliyini itirib. Aleksandriya kitabxanasında Seyid Yəhya Bakuvi haqqında araşdırma apararkən 720 "Şirvani" imzalı İslam aliminə rast gəldim. Şairləri hələ heç demirəm. Yəni o boyda mədəniyyətə sahib Şamaxı bu gün təbii ki, fərqlidir. Xüsusən, rəngkarlıq, musiqi dahiləri yaratmış, muğamı, cazı formalaşdırmış Bakı da artıq o Bakı deyil. Dayım və atamdan danışanda bunları nəzərdə tuturdum. Təbii ki, hər iki tərəfdən nələrsə götürmüşəm. Bizim nəslimiz Teymuri nəslidir, Teymurlənglə Azərbaycana, Şamaxıya gəlmiş türkdilli nəsildir. Nəslimizdən olanların qəbri bu gün də "Şaxəndə" qəbristanındadır. Fikrimcə, bütün o irfan, kök, ərəb, fars, türkdilli mədəniyyət bu gün Şamaxıda olmasa da, o mədəniyyətin insanları gec-tez bu böyük mədəniyyəti bərpa edəcəklər. "Ölü mətn" romanım bu haqdadır. Məncə, Şirvan şeir məktəbindən ironiyanı, Bakı qismindən isə daha çox görüntülü nəsri, rəngləri götürmüşəm.

**- Sizinçün özünü yazmaq asandır, yoxsa başqalarını?**

- Məncə, yazıçı başqalarını görüb özünü yazır. Yəni başqa insanların başına gələn əhvalatları öz ruhani süzgəcindən keçirib özünü yazır, o insanların yerində özünü təsəvvür edir. Birmənalı olaraq, düşünürəm ki, yalnız özünü yazan uğurlu yazıçı deyil. Çünki o, tez tükənər. Başqalarını yazan da öz süzgəcindən keçirməyib yazırsa, ciddi yazıçı deyil. Yazıçı situasiyanı öz zehniyyətindən, təfəkküründən keçirməyi bacaran adamdır.

**- Arzularınızın başqasının arzusuyla zidd gəldiyi olub? Olubsa, hansınız qurban olmusunuz?**

- Yox, arzularım heç vaxt kiminsə arzularıyla toqquşmayıb. Amma mən uduzmağı da heç sevmirəm. Bəzən telejurnalistikada, ya da kinematoqrafiyada konkurs olub ki, mənim ssenarim keçib, həmin o ssenarisi keçməyən adamlar bu günə kimi mənimlə düşməndirlər. Görünür, mənim yox, onların arzuları mənim arzularımla toqquşub ki, bu günə kimi mənə düşmən olaraq qalırlar. Amma mən belələrini yaradıcı yox, sadəcə, zəif və paxıl insan adlandırıram. Çünki insan öz layihələrini bütün vasitələrlə həyata keçirməyi bacarmalıdır. Arzu zəif insanlara aiddir. 30-40 il bir arzuyla yaşayıb, onu həyata keçirməmək zəiflik əlamətidir. İstək və real layihə varsa, onun arxasında durmaq və əzmlə həyata

keçirmək insandan totalitar güc tələb edir. Böyük Sovet kinorejissoru Tarkovski öz gücüylə o boyda Sovet rejiminə qarşı vuruşurdu. O, SSRİ-dən çıxan kimi Qərbdə iki film çəkdi və rəhmətə getdi. Çünki o, mübarizədə Tarkovski idi. Mən və mənə yaxın olan insanlar da beləyik. Biz arzulamaqı deyil, həmin o mübarizədə yaşamağı öyrənmişik. Düşünürəm ki, o mübarizə olmasa və öz arzularımı özüm gerçəkləşdirməsəm, həmin an bitəcəm.

**- Publisistikanızdakı satiraya bədii yaradıcılığınızda çox da rast gəlmirik. Bu mənada jurnalist Orxan Fikrətoğlu ilə yazıçı Orxan Fikrətoğlunun həyata baxışlarının fərqli olduğunu deyə bilərik?**

- Publisistikayla ədəbiyyat tamam başqadır. Orxan Fikrətoğlu televiziyada nədirsə, ədəbiyyatda ondan tamamilə fərqlidir. Ədəbiyyatda pis və ya yaxşı öz stilim var. Mənim özüməməxsusluğum haqqında çox tənqidçilər yazıblar. Mənim ədəbiyyatımda kimsə siyasət, publisistika, ya da bu günün eybəcərliklərini axtarırsa, o, demək ki, ədəbiyyatın nə olduğunu anlamır. Məncə, ədəbiyyatın ölkələrə də aidiyyatı yoxdur. Ədəbiyyat insanla Allah arasında olan, insanın gözəlləşməsinə, insan münasibətlərinin təkmilləşməsinə xidmət edən İlahi bir prosesdir. Fellini deyir ki, jurnalistika bütün sənətlərin kanalizasiyasıdır. Televiziya, jurnalistika həqiqətən də bütün sənətlərin kanalizasiyasıdır, hamısı ora axır. Amma rəngkarlıq, ədəbiyyat, poeziya kimi böyük, İlahi sənətlər fərqlidir. Onların yükü də, missiyası da, istəyi də fərqlidir. Bunu bilməyən millət ermənilər kimi xəstə olur. Ermənilərin təbliğ etdiyi öz yalançı tarixləri idi. Bizim təbliğ etdiyimiz isə Nizaminin, Füzulinin bizim olmasıdır. Amma təəssüf ki, onu təbliğ edənlərin çoxu nə Nizamini anlayır, nə Füzulini. Biz öz ədəbiyyatımızı anlamalıyıq. Mənim sarkazmım, ironiyam ancaq publisistikama aiddir. Tragediya, yəni faciə yaşanmış proses idi. Qədim Yunanıstanda qurban kəsilərdi və həmin o qurban faciə qəhrəmanı idi. O qurban sonralar ədəbiyyata keçdi və finalda qurban kəsilən qəhrəman məna olaraq cəmiyyətdə bir ədalət uğrunda savaş apardıqdan sonra qurban olmuş olardı. Bax, tragediya həyatın qurban reallığında yaşantılarıdır. Komediya tragediya qədər ciddi deyil. O, nəyisə tənqid və ya təfşiş etmək üçündür, daha çox sosialdır, bu günlə, bu anla bağlıdır. Tragediya isə dərindir. Ona görə də ciddi ədəbiyyat satirik deyil. Söhbət Mirzə Cəlildən getmir. O, azərbaycanlılara gülməli gəlir, əslində isə tragik yazıçıdır. Ümumiyyətlə, böyük satiriklərin hamısı tragikdir.

**- "Tək" romanınızda belə bir cümlə var: "Ölümə sevgi olduğu halda, sevgiyə ölüm yoxdur". İnsanlar ölümü nə vaxt sevirlər?**

- Yaponlarda məqsəd uğrunda ölmək, İslam reallığında "şəhidlik" anlayışı var. Bütün bunlar dünya reallığında qəbul edilən və müəyyən ideoloji reallıqda mütləq millətlərə lazım olan amillərdir. Amma insan yaşamaq istəyir. Mən yaxınlarımı çox itirmişəm. Atamı, böyük qardaşımı və sair. İtki mənimçün çox ağırdır. Yaxınlarıma, dostlarıma, qohumlarıma çox bağlıyam. Təəssüf ki, taleyimə çox yaxın itirmək düşüb və hər yaxınımı itirdikcə bədənimin bəlkə də 90 faizi gedib. Əslində, bu gün mən özüm də ölüyəm. Çünki yaxınlarımı itirdikcə, tam həyat yaşamıram.

**- Yaxşı yazı böyük ağlın, yoxsa böyük ruhun məhsuludur?**

- Poeziya bir anın, nəsr, hekayə, roman isə beynin məhsuludur. Təbii ki, burda da İlahi müdaxilə, ruh var, amma beyin daha üstünlük təşkil edir. Dünyanın bütün böyük yazılarının arxasında bir fəlsəfi məntiq var. Fikrimcə, Azərbaycanda kateqoriyalara görə düşünmək bacarığı olmadığından, nəsr belə zəifdir.

**- Modern ədəbiyyatın qəhrəmanı kimdir, ya da kim olmalıdır?**

- Bu sualın saatlarla söhbət, müzakirə tələb edən cavabı var. Əslində, dünyada baş verən modern ədəbiyyatın yaranması siyasi prosesdir. Servantesə qədər minlərlə qəhrəmanlıq romanı yazılmışdı. Amma Servantes "Don Kixotu" yazmaqla modern yanaşaraq, əslində, o dövrün postmodernizmini yaratmışdı. Modern ciddi klassik nəsri, ciddi klassik ədəbi təfəkkürü tamamilə başqa müstəviyə keçirən bir etapdır. Modern ədəbiyyatın ciddi simaları var. Bu, qəhrəmansız ədəbiyyatdır. Modern ədəbiyyat bir yanaşma olaraq, köhnə dəyərləri sındırıb, insanı qəhrəmansız etmək istəyən ədəbiyyatdır. Bununla belə, təəssüf ki, insanın yeni dəyərlər haləsində, çərçivəsində yerini müəyyən etməyi bacarmır. Klassik ədəbiyyat bəsitdir, pafosludur, amma onun bir nizamı var idi. Mənfi, müsbət qəhrəmanlar, yarım qəhrəmanlar, polifonik qəhrəmanlar və digər nüanslar var idi. Modern ədəbiyyat çox haqlı olaraq, bütün bütləri sındırır, amma yeni təklifini verə bilmir. Modern ədəbiyyatın problemi budur.

**- Sizə görə bizi ən yaxşıya aparıb çıxaracaq həqiqət nədir?**

- İnsan olaraq qalmaq. Ətrafınızda çox cahil, nadan insanlar görəcəksiz, problemlərlə qarşılaşacaqsız, itkiləriniz olacaq, əhatənizdə sizi çox incidəcəklər, amma bununla belə insan olaraq qalmağı bacaracaqsınızsa, bu, sizin qələbəniz olacaq. Dünya çox gəlhagəllidir. Ağlınız, istedadınız və bu cəmiyyətdən baş çıxarmaq bacarığınız varsa, sizə çox təkliflər olacaq. Məsələ satılmamaqdır. Mən belə insanlar da gördüm. Onlar kristal təmizliyində idilər. Amma bu gün belə insanlara, sən demə, aciz deyirlər. Onlar, sən demə, mənim kimilərinə aciz kimi baxırmış. Bu, mənimçün çox yeni bir xəbər oldu. Öyrəndim ki, belə bir yanaşma da var imiş ki, həyasız abırlıya aciz deyirmiş.

**- Yazıçı, ədəbiyyat adamı kimi Orxan Fikrətoğlunu bu gün düşündürən, narahat edən əsas məsələlər nələrdir?**

- Yazıçı kimi bu gün məni düşündürən Azərbaycan xalqının Qarabağa böyük qayıdışıdır. Nəhayət ki, Azərbaycan insanının bu komplekslərdən azad olmasıdır. Məğlubluq çox ağır kompleksdir və biz 44 gündə şəhidlərimizin, qazilərimizin hesabına bunu həll etdik. Allah şəhidlərimizin məqamını uca eləsin, necə ki, elədi. Onlar bizə öz kimliyimizi, torpağımızı qaytardılar. Mən bu gün qəhrəman o insanı hesab edərəm ki, vəzifəsini, iş-gücünü atıb, oraya qayıtmağı seçəcək. İnsan öz vətənində olmalıdır. Biz bütün azərbaycanlılar 30 ilə yaxın bu dərdi birgə çəkmişik və bu gün bizim oraya qayıtmağımız çox mühümdür.

Eyni zamanda, məni narahat edən insan təsnifatının dəbdən düşməsi, intellektual insanların azalması, ədəbiyyatın, kinematoqrafiyanın, jurnalistikanın böhran keçirməsidir. Onu da deyim ki, hər sahədə onlarla istedadlı insan var. Lakin onların təşkilatlanması problemi var. 44 günlük müharibədə bir xalq necə təşkilatlandı, birlik oldu, bunu ədəbiyyata da tətbiq edib, ədəbiyyatın da "itirilmiş ərazilərini" qaytarmaq, məncə, çox vacibdir.

30 il keçməsinə baxmayaraq, Sovet ədəbiyyatının ab-havası hələ də Azərbaycan ədəbiyyatında qalıb. Yeni yaranmış ədəbiyyat isə sanki bir kənarda özü öz havasında yaşayır. Onun da cəmiyyətlə bağlılığı, təsnifatı yoxdur. Biri rus ədəbiyyatından, biri Avropa, başqası yapon ədəbiyyatından qaynaqlanıb. Böyük mütaliəsi olan adam kimi, bilirəm kim hardan götürür, hardan plagiat edərək Azərbaycan oxucusuna təqdim edir və düşünür ki, heç kim heç nə bilmir. Əslində, elə düz düşünür, burda heç kim heç nə bilmir.

Gözləntilərim yeni gənc nəslin Azərbaycanı Azərbaycana qaytarması, insanların yalan danışmaması, məmurların xalqın xidmətçisi olduğunu anlaması, bütün dövlət strukturlarının işlək olması, səhiyyənin, təhsil sisteminin bərpası, yeni dərsliklərin yazılmasıdır. Ümumən, məni narahat edən çox məsələlər var. Özümlə bağlı isə, ailəmin, yaxınlarımın cansağlığı, bütün Azərbaycanın xoşbəxt olması, Azərbaycan gəncinin intellektual və insani potensialını həyata keçirməyə zəmin yaradılmasıdır. O qədər istedadlar zəmin, şərait yoxdur deyə, sönüb gedirlər.

**- Bu gün Azərbaycanın ədəbi simasını necə görürsünüz?**

- Çox təəssüf ki, neqativ görürəm. Deyə bilmərəm ki, Azərbaycan ədəbiyyatı böyük inkişafdadır. Bəlkə sizə qəribə gələr, amma mənimçün sonuncu şairlər hələlik Ələkbər Salahzadə, Vaqif Səmədoğlu, Vaqif Cəbrayılzadə və digər o təsnifata aid şairlərdir. Çünki onlar simalarını qorumuş insanlardır. Ələkbər Salahzadə, Fikrət Sadıq, Fikrət Qoca və sair kimi 60-cı illər şairlərimizin o dönəm yaratdıqları təəssüf ki, 1980-90-cı illərdə dayandı, ondan sonra da Azərbaycan poeziyasında kütləvi inqilab olmayıb.

**- İlk romanınız "Yeddi" post-hürufi, "Ölü mətn" romanınız post-sufi romanı idi. Ümumiyyətlə, əsərlərinizdə irfani təfəkkür, fəlsəfi fikirlər üstünlük təşkil edir. Sizcə, bunlar adi oxucunun sizi anlamasını çətinləşdirmir ki?**

- Son zamanlar kitablarımı Türkiyədə çap etdirirəm. Orda kitablar çox yaxşı satılır və hətta bir neçə il o satışlarla yaşamışam da. Bu əsərlər mənə necə gəlibsə, o cür də yazılıb. İrfani təfəkkür bizə yad deyil. Əgər oxucu çaşırsa, irfanı öyrənsin. Mən o yazıçılardan deyiləm ki, oxucunun sifarişiylə yazı yazım. Öz istədiyimi yazıram. Oxucunun anlayıb, anlamaması maraqlı deyil. Mənə o maraqlıdır ki, oxucu yazımı oxuyandan sonra, məsələn, Xəlvətiyyə dərviş məktəbini anlasın. Əgər anlamırsa, deməli, heç ədəbiyyat oxumasın. Yox, anlayırsa, deməli, daha dərinə gedəcək. Seyid Yəhya Bakuvinin çox gözəl bir sözü var. Deyir, mən insanların şərindən qurtarmıram, insanları öz şərimdən qurtarıram. Hər bir insan həm də şərdir. Bakuvi orijinal təfəkkürlü insandır. Məsələn, o, deyir, mən Allahın Allah olduğunu onda anladım ki, hər istədiyimi mənə vermədi. Bax, bunu anlayan insana normal insan kimi baxıram. Anlamırsa, ədəbiyyatı oxumasın.

Böyük sufi alim Vəli Bektaşi dəniz sahilində oturub dənizə qatıq atırmış. Biri keçəndə bunu görür və soruşur ki, nə edirsən? Deyir, dənizdə qatıq çalıram. Soruşur, dənizdə qatıqmı olar, sənin bir damcı qatığından dəniz bütün qatığa çevrilə bilərmi? Bektaşi cavab verir ki, niyə çevrilmir, Allah istədi bir damladan sən boyda insan yaranmadı? Adam çıxıb gedir. O gedəndən sonra Bektaşi öz-özünə deyir ki, amma alınsa, ay kef eliyəcəm ha. Bax, məsələ budur. O boyda Vəli Bektaşi Allaha o qədər inanır ki, bir damcı qatığı dənizə atanda həqiqətən də dənizin çevrilib qatıq tutacağına da inanır. Bu inam yiyəsi ədəbiyyatda varmı? Söhbət təkcə Allaha inamdan getmir. Ümumiyyətlə, belə bir inam yiyəsi güclü bir insan ədəbiyyata gəlibmi? Rusiyada pul qazanan minlərlə azərbaycanlı obrazı gəlibmi Azərbaycan ədəbiyyatına? Gəlməyib. Bu mənada Azərbaycan ədəbiyyatı bitkin ədəbiyyat deyil.

**- Əsərlərinizdə ən yaxşı anlada bildiyiniz mövzu nədir? Yəni sizin fikrinizcə, hansı mövzu sizdə alınır və nə üçün?**

- Fikrimcə, bunu tənqidçilər deyə bilər. Amma mən oxucuya nəyisə anlatmağa çalışmıram, sadəcə öz yazımı yazıram. Anlatmaq zəif yazıçıların istəyi ola bilər. Mən özümü kütləvi yazıçı saymıram. Hamı üçün yox, anlayanlar üçün yazıram.

**- Müsahibələrinizin birində demisiniz ki, ədəbiyyat həyata kömək olmalıdır. Məncə, həyatın, dünyanın ən çox köməyə ehtiyac duyduğu zamanlardan birini yaşayırıq bu günlərdə. Bəs ədəbiyyat indi bizə necə kömək ola bilər?**

- Baxır kömək hansı mənadadır. Məsələn, ədəbiyyat müharibədə insana kömək edə bilməz. Amma ədəbiyyat olmasa, müharibə olmaz. Ədəbiyyat olmasa, insanın imanı olmaz. Ədəbiyyat olmayan cəmiyyətdə insan olmur. O, insanı insan edən substansiyadır. Ədəbiyyat mütləq yarıminsanı insana, yarımpadşahı tam padşaha çevirməlidir. Ədəbiyyat oxuyan müdafiə naziri daha yaxşı vuruşur. Ədəbiyyat insanı hansı sahədə olursan ol, təkmilləşdirir.

**- Bir möcüzə gerçəkləşsə və 20 yaşlı Orxan 55 yaşlı Orxan Fikrətoğlunun qarşısına çıxsa, ona verəcəyiniz ilk və əsas tövsiyə nə olardı, ya da özündə nəyi dəyişdirməyini istərdiniz?**

- Ona bir tövsiyə verərdim ki, get Azərbaycandan. Və mən əminəm, həmin o 20 yaşlı Orxan 55 yaşlı Orxana cavab verərdi ki, getməyəcəyəm. Bu, mənim bütün həyatım oldu. Rusiyada oxuyanda orda qalmaq istəyirdim, atam qoymadı, qayıtdım. Qayıdandan sonra qoşuldum hərəkata, müstəqil dövlətimizi qurduq, bıçaqlandım, başıma müxtəlif işlər gəldi, məcbur olub jurnalistikaya girdim ki, boz kütləni xalq eliyim. Bu günə qədər də mübarizələrdəyəm. Avropaya getmək istəyirdim. Günü bu gün Kanadaya gedə bilərəm, vətəndaşlığım da var. Amma bu torpağı, bu milləti atıb gedə bilmirəm. Ona görə ki, babamın, atamın mənə vəsiyyəti var: "Sən bu torpağa, bu millətə təmənnasız xidmət etməlisən. Baxmayaraq ki, bu millət, bu torpaq səni gec-tez öldürəcək, amma sən yenə də təmənnasız xidmət etməlisən. Medalı da, evi də, imtiyazı da başqasına verəcəklər, amma sən xidmət etməlisən". Necə ki, atam edib, babam edib, babalarım edib. Kimsə tərəfindən görülməyən bu xidmətlər bir qarışqa xidmətidir. Amma bunun dəyərini Azərbaycan Prezidenti mənə verib. Əməkdar İncəsənət Xadimiyəm. Bunun dəyərini xalq verib. Çoxlarının milyonlar, milyardlar xərclədiyi hörməti mən küçədə hər cür insandan görmüşəm. Düşünürəm ki təmənnasız xidməti ağıllı adamlar dəyərləndirir. Ən pis adamın belə içində bir ədalət var və o, bilir ki, yaxşı kimdir, pis kimdir.[1]

**Şahanə MÜŞFİQ**

[1] https://525.az/news/164544-orxan-fikretoglu-arzularim-hec-vaxt-kiminse-arzulariyla-toqqusmayib